AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

30 APREL 2019-cu il ÇƏRŞƏNBƏ AXŞAMI № 93 (6420) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Bakıda Formula 1 SOCAR Azərbaycan Qran-Prisi başa çatıb

### *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışa baxıblar*





**Aprelin 28-də Bakıda Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib. Əvvəlcə pilotların paradı və açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar.

Formula 1 Azərbaycan Qran-Prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qaldı.

Paradda və himn mərasimində pilotları azyaşlılar müşayiət etdilər. Formula 1 şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının "Gələcəyin ulduzları" adlı birgə təşəbbüsü çərçivəsində qəbul etdiyi qərara əsasən, ötənilki mövsümdən etibarən həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət olunurlar.

Əvvəlcə builki yarış üçün xüsusi tərtib olunmuş kubok təqdim edildi.

Açılış mərasiminə Azərbaycan Respublikasının dövlət himninin ifası ilə start verildi.

Dövlət himni tanınmış bəstəkar Azad Vəliyevin yeni aranjimanında səsləndirildi. Himni Azərbaycanın Əməkdar artistləri Bəyimxanım Vəliyeva və Nurlan Növrəsli birlikdə, müvafiq olaraq, muğam və klassik üslublarda ifa etdilər. Onları Əməkdar artistlər - tarda Şəhriyar İmanov, nağarada Kamran Kərimov, violonçeldə Emin Qaliyev və bəm nağarada Hüsaməddin Əzizov müşayiət etdilər.

Dövlət himninin ifa olunmasından sonra Formula 1 Azərbaycan Qran-Prisinin 51 dövrədən ibarət əsas yarışı başladı.

Final mərhələsində hər birində iki pilot olan on komanda mübarizə apardı. Ötən gün keçirilən sıralama yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə "Mercedes" komandasının sürücüləri Luis Hamilton və Valtteri Bottas, "Ferrari" komandasının pilotu Sebastian Fettel dayandılar.

Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Gərgin idman mübarizəsinin yekununda "Mercedes" komandasının pilotu Valtteri Bottas Formula 1 SOCAR Azərbaycan Qran-Prisinin qalibi adını qazandı. O, 51 dövrəni hamıdan tez - 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vurdu.

Ondan 1,524 saniyə geri qalan komanda yoldaşı, ötənilki Bakı Qran-Prisinin qalibi Luis Hamilton ikinci oldu. İlk üçlüyü liderə 11,739 saniyəlik fərqlə uduzan "Ferrari" komandasının sürücüsü Sebastian Fettel tamamladı.

"Mercedes" komandası bu qələbə ilə Formula 1 üzrə dünya çempionatları tarixində yeni rekorda imza atdı. Belə ki, ilk dəfə olaraq ardıcıl dörd Qran-Pridə bir komandanın hər iki pilotu yürüşləri ilk iki pillədə başa vurdu.

(davamı 2-ci səhifədə)

## Prezident İlham Əliyev Xorvatiya Baş nazirinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Xorvatiya Respublikası Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Xorvatiyaya səfərini məmnunluqla xatırlayaraq orada aparılan danışıqların və müzakirələrin səmərəli olduğunu qeyd etdi və bu səfərin ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlıq həyata keçirdiklərini vurğulayaraq, əlaqələrimizin gələcəkdə də genişlənəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı Mariya Buriçin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin möhkəmlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Xanım Mariya Buriç, ilk növbədə, Xorvatiyanın Baş naziri Andrey Plenkoviçin salamlarını dövlətimizin başçısına çatdırdı. Mariya Buriç Prezident İlham Əliyevin Xorvatiyaya səfərinin çox uğurlu keçdiyini və səfər zamanı əlaqələrimizin daha da möhkəmlənməsi baxımından məhsuldar müzakirələrin aparıldığını qeyd etdi. O, səfəri çərçivəsində Xorvatiyanın Azərbaycandakı səfirliyinin rəsmi açılışında iştirak edəcəyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Xorvatiyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Argentina Milli Konqresinin Deputatlar Palatasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzonu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Argentinanın bir sıra sahələrdə əməkdaşlıq həyata keçirdiklərini deyən Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin rolunu qeyd etdi. Dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladı.

Qəbula görə minnətdarlığını bildirən Emilio Monzo Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevin Azərbaycanın hüdudlarından kənarda, o cümlədən Argentinada böyük nüfuza malik olduğunu dedi və dövlətimizin başçısının siyasəti nəticəsində Azərbaycanın digər ölkələrlə yaxşı dostluq münasibətləri qurduğunu məmnunluqla qeyd etdi. Emilio Monzo ölkəsinin Azərbaycanla əlaqələrin hərtərəfli inkişaf etdirilməsində maraqlı olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Argentina arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə olundu, iqtisadi, ticarət, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd edildi.

Dövlətimizin başçısı Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Argentina Prezidentinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## "Nə? Harada? Nə zaman?" Televiziya Klubu Komandası üzvlərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan gəncliyini beynəlxalq intellektual oyunlarda layiqincə təmsil etdiklərinə görə "Nə? Harada? Nə zaman?" Televiziya Klubu Komandasının aşağıdakı üzvləri "Tərəqqi" medalı ilə təltif edilsinlər:

*Qasımov Balakişi Ələkbər oğlu*
*Talıbov Elman Eldar oğlu*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 aprel 2019-cu il.**

# Bakıda Formula 1 SOCAR Azərbaycan Qran-Prisi başa çatıb

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışa baxıblar*




















**(əvvəli 1-ci səhifədə)**

Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə müvafiq olaraq Finlandiyanın və Almaniyanın dövlət himnləri səsləndirildi.

Qran-Prinin qalibi Valtteri Bottasa kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.

Dövlətimizin başçısı Konstruktorlar kubokunu “Mercedes” komandasının nümayəndəsinə təqdim etdi.

İkinci yerin sahibi, “Mercedes”in sürücüsü Luis Hamiltona kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan “Ferrari” komandasının sürücüsü Sebastian Fettelə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.

Beləliklə, Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsindən - Azərbaycan Qran-Prisindən sonra pilotların mübarizəsinə 87 xalla “Mercedes”in sürücüsü Valtteri Bottas liderlik edir. Komanda yoldaşı Luis Hamilton ondan 1 xal geri qalır. “Ferrari” komandasının almaniyalı pilotu Sebastian Fettel 52 xalla üçüncü, “Red Bull Racing Honda”nın hollandiyalı pilotu Maks Ferstappen 51 xalla dördüncü, “Ferrari”nin Monakodan olan sürücüsü Şarl Lekler isə 47 xalla beşinci pillədə qərarlaşıblar.

Konstruktorların yarışında isə “Mercedes” komandası 173 xalla birinci sıradadır. İkinci yerdə qərarlaşan “Ferrari” komandasının 99, üçüncü pillədəki “Red Bull Racing Honda”nın 64 xalı var.

**(davamı 3-cü səhifədə)**

# Bakıda Formula 1 SOCAR Azərbaycan Qran-Prisi başa çatıb

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışa baxıblar*






(əvvəli 2-ci səhifədə)

Builki Bakı yarışı Formula 1 idmanı tarixində sayca 1001-ci Qran-Pridir. Çində təşkil olunan Formula 1 üzrə 1000-ci Qran-Pridə qələbə qazanan Luis Hamilton iki yubiley Qran-Prisinin qalibi olan ilk pilot kimi tarixə düşüb. Belə ki, o, 2014-cü ildə Bəhreyndə təşkil olunan 900-cü Qran-Pridə də qələbə qazanıb.

Bakıda Formula 1 Azərbaycan Qran-Prisinə aprelin 26-da start verilib. Yarışın birinci günündə pilotlar Bakı trekində ilk sərbəst yürüşdə güclərini sınayıblar. Ötən gün keçirilmiş sıralama yürüşündən sonra isə Qran-Pridə pilotların düzülüşü müəyyənləşib. Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula 2 yarışları da keçirilib.

Xatırladaq ki, Formula 1 yarışı Azərbaycanda dördüncü ildir təşkil olunur. 2016-cı ildə keçirilən birinci yarışda - Formula 1 Avropa Qran-Prisində "Mercedes" komandasının almaniyalı pilotu Niko Rosberq qalib gəlib. 2017-ci ildə təşkil olunan Formula 1 Azərbaycan Qran-Prisi "Red Bull Racing Honda" komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatıb. Ötənilki Qran-Pridə isə "Mercedes" komandasının britaniyalı sürücüsü Luis Hamilton qələbə qazanıb.

AZƏRTAC

---

*Prezident İlham Əliyev:*

# Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq

**Mən tam əminəm ki, hər bir ölkənin inkişafı üçün demokratiya xüsusi rol oynayır. Ölkə iqtisadi cəhətdən, o cümlədən təbii resurslarla zəngin ola bilər, lakin cəmiyyətdə gözəl ab-hava, azadlıqlar yoxdursa, bu inkişaf yarımçıq ola bilər və ya dayanıqlı olmaya bilər. Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq. Bu da hesab edirəm ki, çox düzgün və düşünülmüş siyasətdir. Əgər demokratiya baxımından inkişaf etmiş ölkələrə nəzər salsaq görərik ki, onların mütləq əksəriyyəti iqtisadi cəhətdən də inkişaf etmiş ölkələrdir. Yəni, maddi rifah, iqtisadi inkişaf, sosial inkişaf demokratik inkişaf üçün əsas şərtdir.**

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 81-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı Milli Mətbuat Günü münasibətilə jurnalistlər üçün tikilmiş növbəti binada mənzillərin paylanması mərasimində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin bu kitabındakı materiallar 2017-ci ilin iyun-avqust aylarını əhatə edir.

Kitabda dövlətimizin başçısının Polşa və Latviyaya rəsmi, Türkiyə və Rusiyaya işgüzar səfərləri zamanı, həmçinin Türkmənistan Prezidentinin Azərbaycana səfəri zamanı bu ölkələrin rəhbərləri ilə danışıqlarına, imzalanan sənədlərə, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanıb.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu çoxcildliyin 81-ci kitabında Prezident İlham Əliyevin Avstriya, ABŞ, Türkmənistan, Özbəkistan və digər dövlətlərin ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallarla da tanış ola bilər.

Kitabda dövlətimizin başçısının Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, həmçinin Qaxda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində nitqlərinin mətnləri, Balakən, Zaqatala, Göygöl, Samux, Gədəbəy və Şəmkir rayonlarına səfərləri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşlərinə, bölgələrdə və paytaxtda iqtisadi, nəqliyyat, sosial infrastruktur layihələrinin açılışında iştirakına və çıxışlarına dair materiallar daxil edilib.




Nəşrdə Prezident İlham Əliyevin 2017-ci ilin iyun-avqust aylarında müxtəlif ölkələrin dövlət başçılarına məktublarının mətnləri də yer alıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 81-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

AZƏRTAC

---

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 36.9-cu maddəsinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Müraciətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun mayın 24-nə təyin edilmiş iclasında baxılacaq.

AZƏRTAC

---

# Azərbaycanla İranın ticarət dövriyyəsi artıb

**Bu ilin birinci rübündə Azərbaycan ilə İran arasındakı ticarət dövriyyəsində artım müşahidə edilib.**

AZƏRTAC İranın baş gömrük idarəsinin açıqlamasına istinadla xəbər verir ki, cari ilin yanvar-mart aylarında iki ölkə arasındakı ticarət dövriyyəsi 3,4 faiz artaraq 230 milyon dollara çatıb. Xatırladaq ki, ötən ilin müvafiq dövründə ticarət dövriyyəsinin həcmi 162 milyon dollar olmuşdu.

Üç ayda Azərbaycanın İrana ixracının dəyəri 11 milyon dollar, İranın Azərbaycana ixracının həcmi isə 219 milyon dollar təşkil edib.

AZƏRTAC

---

# Ramazan ayının başlanması ilə əlaqədar fətva verilib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və Elmi-Dini Şurası mübarək Ramazan ayının başlanması ilə əlaqədar fətva verib.**

AZƏRTAC xəbər verir ki, fətva aprelin 29-da QMİ-də şeyxülislam Allahşükür Paşazadənin sədrliyi ilə keçən toplantıda verilib.

Fətvada bildirilir ki, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura ilahi rəhmət və bərəkət qapılarının açıldığı müqəddəs Ramazan ayının başlanması münasibətilə xalqımızı və dünya müsəlmanlarını təbrik edir, Allah-Təaladan dua və ibadətlərimizin qəbul olunmasını diləyir.

"Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Şamaxı Astrofizika Rəsədxanasının 2019-cu il üzrə hesablamalarına görə, ölkə ərazimizin üfüqünə uyğun olaraq Ramazan ayının 1-i Miladi tarixlə mayın 6-na təsadüf edir. Ay göründüyü andan etibarən Ramazani-şərif başlayır və niyyət gecəsi mayın 5-dən 6-na keçən gecəyə düşür.

İnsanların düşünüb ibrət almaları, Haqq yoluna hidayət olunmaları üçün göndərilən Qurani-Kərim məhz Ramazan ayının mübarək Qədr gecəsində nazil olub. Qadir Allah "Bəqərə" surəsinin 183-cü ayəsində Ramazanda oruc tutmağın müsəlmanlara vacib olduğunu bəyan edərək belə buyurub: "Ey iman gətirənlər. Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) pis əməllərdən çəkinəsiniz!"



Oruc insanı səbrə, nəfsi tərbiyə etməyə, paklıq, mərhəmət və xeyirxahlığa, habelə ehtiyac sahiblərinin halını anlamağa təşviq edən bir ibadətdir. Bu ibadətin fəzilətindən bəhs edən Peyğəmbər (s) buyurub: "Kim Ramazan ayının orucunu iman edərək və savabını yalnız Allahdan gözləyərək tutsa, keçmiş günahları bağışlanar". Rəsulullahın (s) "kiçiklərinizə mərhəmət və böyüklərinizə hörmət göstərin" tövsiyəsinə əsasən ilk olaraq valideynlərə ehtiram göstərmək, uşaq evlərinə, yaşlılara, ehtiyac sahiblərinə maddi və mənəvi dəstək olmaq, kimsəsizlərin kimsəsi olmaq orucluqda Allah-Təalanın rizasını qazanmaq üçün bir fürsətdir. Cəhənnəm qapılarının bağlandığı və ilahi məğfirətin bol olduğu Ramazanda Qurani-Kərimi oxuyub mənasını dərk etməyə çalışmaq, qohum-qonşuya baş çəkmək, əbədi aləmə köç edənlərin ruhunu yad etmək, insanların sevinc və qəminə şərik olmaqla cəmiyyətdə dostluq və qardaşlığı təbliğ etmək dinimizdə böyük savablardan hesab olunur.

QMİ bu il də AMEA Şamaxı Astrofizika Rəsədxanası ilə birgə Ramazanın başlanğıcı, bu ayın namaz vaxtları və gündəlik dualarını, eləcə də bayram tarixini müəyyənləşdirən xüsusi təqvim tərtib edib. Qazılar Şurası və Elmi-Dini Şura bəyan edir ki, dindarlarımız başqa mənbələrdən əldə edilən, məzhəblərarası təfriqə və laxt ayrı-seçkiliyi yaradan təqvimlərdən heç bir vəchlə istifadə etməsinlər. Din xadimləri belə halların qarşını almağa çalışmalıdırlar. Ümid edirik ki, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyətlərinin müvafiq qurumları da bu məsələdə öz köməyini əsirgəməyəcək, məhz QMİ tərəfindən tərtib edilən Ramazan təqviminin kütləvi informasiya vasitələrində, o cümlədən sosial mediada təbliğinə və yayılmasına nəzarət edəcəklər.

Qazılar Şurası və Elmi-Dini Şura mübarək Ramazan ayı ərzində iftar vaxtından əvvəl ehsan adı ilə açılan süfrələrdə iştirak etməyin böyük günahlardan hesab olunduğunu diqqətə çatdıraraq bildirir ki, belə məclislərdə iştirak edən din xadimləri barəsində ciddi tədbirlər görüləcək.

Qazılar Şurası tövsiyə edir ki, bu əziz ayda dinimizdə müqəddəs sayılan şəxslərlə yanaşı, Vətənimizin azadlığı və torpaqlarımızın bölünməzliyi uğrunda canlarından keçən 20 Yanvar, Qarabağ və Aprel şəhidlərinin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, xütbə və moizələrdə vətənpərvərliyin təbliğinə xüsusi diqqət yetirilsin.

İnşallah, Fitr bayramı (Şəvval ayının 1-i) Ayın üfüqi ərazimizdə görünməsinə əsasən iyunun 5-nə təsadüf edəcək. Azərbaycan xalqı və dövləti bu böyük və əziz bayramı hər il yüksək səviyyədə qeyd edir. Dövlətimizin dini dəyərlərə, dindarlara və din xadimlərinə diqqət və qayğısı respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyəsinin təzahürüdür. Dövlətimizin başçısı tərəfindən əhalinin rifahının daha da yüksəlməsi naminə həyata keçirilən sosial-iqtisadi islahatlar və dinimizin təbliğ etdiyi humanizm prinsiplərinə uyğun olaraq azadlıqdan məhrum edilmiş yüzlərlə şəxsin əfv olunması haqqında imzalanan Sərəncamı ölkə dindarları böyük minnətdarlıq və rəğbətlə qarşılayırlar.

Orucluğun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Fitrə zəkatı Yaradana şükrün bir ifadəsi və canın sədəqəsi hesab olunur. Maddi baxımdan imkanı olan müsəlmanın, ailəsinin hər bir üzvü üçün, fitrə zəkatı çıxarıb imkansızlara və ehtiyac sahiblərinə verməsi vacibdir. Qazılar Şurası hazırkı şəraitə uyğun olaraq fitrə zəkatının adambaşına 5-10 manat dəyərində verilməsini məsləhət görür.

Ramazan duaların qəbul olunduğu bir aydır. Bu ayda müstəqil Azərbaycanımızın banisi mərhum Heydər Əliyevi rəhmətlə yad edir, dövlətçiliyimizin möhkəmlənməsi və inkişafı, xalqımızın tərəqqisi naminə əzmlə çalışan dövlətimizin başçısı İlham Əliyev cənablarına Allah-Təaladan xeyir-dualar diləyirik. Uca Rəbbimizdən arzumuz budur ki, ölkəmizdə və dünyada sülhü, əmin-amanlığı bərqərar elsin, xalqımıza işıqlı və firavan gələcəyi, gələn Ramazan ayında iftarlarımızı doğma Qarabağımızda qeyd etməyi nəsib eləsin. Allah oruc və namazlarınızı qəbul etsin. Amin.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura Ramazan ayı ilə əlaqədar verilən fətvanın ölkənin bütün məscidlərində və ibadət yerlərində din xadimləri tərəfindən oxunmasını məqsədəuyğun hesab edir", - deyə fətvada vurğulanır.

AZƏRTAC

---

# Bolqarıstanın "Eurokom" xəbər portalı Bakıda keçirilən Formula 1 yarışına geniş yer ayırıb

**Bolqarıstanın "Eurokom" xəbər portalı Bakıda keçirilən Formula 1 SOCAR Azərbaycan Qran-Prisinə geniş yer ayırıb.**

Portalda yerləşdirilən məqalədə bildirilib ki, Qran-Prinin qalibi olan "Mercedes" komandasının finlandiyalı pilotu Valtteri Bottas bu mövsüm ikinci dəfə finiş xəttinə birinci çatıb. Pilot cari mövsümdə ilk qələbəsini Avstraliya Qran-Prisində qazanıb. Azərbaycan Qran-Prisində qalibiyyət finlandiyalı pilotun karyerasında beşinci qələbəsi olub.

Diqqətə çatdırılıb ki, V.Bottas Formula 1 SOCAR Azərbaycan Qran-Prisində 51 dövrəni 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vuraraq qalib gəlib. O, pilotların yarışında 87 xalla birinci sıradadır. V.Bottasın komanda yoldaşı Luis Hamilton 86 xalla ikinci, "Ferrari"nin almaniyalı sürücüsü Sebastian Fettel isə 52 xalla üçüncü yerdə qərarlaşıblar.

AZƏRTAC

---

# Rumıniya KİV-ləri Formula 1 SOCAR Azərbaycan Qran-Prisindən yazır




**Rumıniyanın geniş oxucu kütləsinə malik "Amosnews" xəbər agentliyi və "News24hours" informasiya portalı Bakıda keçirilən Formula 1 SOCAR Azərbaycan Qran-Prisi barədə AZƏRTAC-a istinadla məqalələr yayımlayıblar.**

Məqalələrdə bildirilir ki, aprelin 28-də Bakıda Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qran-Prinin əsas yarışına baxıblar.

Qeyd olunub ki, Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Diqqətə çatdırılıb ki, gərgin idman mübarizəsinin yekununda "Mercedes" komandasının pilotu Valtteri Bottas Formula 1 SOCAR Azərbaycan Qran-Prisinin qalibi adını qazanıb. O, 51 dövrəni hamıdan tez - 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vurub.

AZƏRTAC

---

# Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Şəhidlər xiyabanını ziyarət edib

**Aprelin 29-da Argentina Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzonun başçılıq etdiyi nümayəndə heyəti Şəhidlər xiyabanına gedərək ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən nümayəndə heyətinin üzvlərinə Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

AZƏRTAC

*Mariya Buriç:*

# Xorvatiya Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminindəki strateji rolunu yüksək qiymətləndirir



**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov aprelin 29-da Xorvatiya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Xorvatiya arasında bütün istiqamətləri əhatə edən çox yaxşı münasibətlərin olduğunu bildirib, bu əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə yüksələn xətlə inkişaf etdiyini söyləyib. "Azərbaycan ilə Xorvatiya arasındakı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Hesab edirəm ki, əlaqələrimizin bu səviyyəyə yüksəlməsində dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri mühüm rol oynayıb. Əminəm ki, sizin də Azərbaycana səfəriniz, apardığınız səmərəli danışıqlar əlaqələrimizin daha da genişləndirilməsinə öz töhfəsini verəcək", - deyə Novruz Məmmədov vurğulayıb.

Azərbaycan-Xorvatiya əlaqələrinin inkişafı baxımından hökumətlərarası komissiyanın fəaliyyətinin önəmini vurğulayan Baş nazir ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiklərini diqqətə çatdırıb. Novruz Məmmədov bildirib ki, Xorvatiyanın Azərbaycanda səfirliyinin açılması ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyətli olacaq.

Azərbaycan ilə Xorvatiya arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edən Baş nazir deyib ki, xanım Mariya Buriçin ölkəmizə səfəri çərçivəsində növbəti Azərbaycan-Xorvatiya biznes forumunun keçirilməsi də bu sahədə əlaqələrin inkişafına xidmət edəcək.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminindəki strateji rolunun ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini bildirən xanım Mariya Buriç Xorvatiyanın Cənub Qaz Dəhlizi layihəsində iştirak etməkdə maraqlı olduğunu vurğulayıb.

Görüşdə informasiya texnologiyaları, kənd təsərrüfatı, əczaçılıq, idman, gəmiqayırma sahələrində əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycan və Xorvatiya strateji tərəfdaşlardır



**Aprelin 29-da Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Xorvatiyanın Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Xorvatiyanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olduğunu deyib. Bildirib ki, gələn il Azərbaycan-Xorvatiya diplomatik əlaqələrinin qurulmasının 25 illiyi qeyd olunacaq. Bu illər ərzində əlaqələrimiz yüksək səviyyəyə gəlib çıxıb. Ölkələrimiz arasında münasibətlərin inkişafında dövlətlərimizin başçılarının böyük rolu var. 2013-cü ildə Azərbaycan və Xorvatiya prezidentləri ölkələrimiz arasında strateji tərəfdaşlıq və dostluq münasibətləri haqqında Zaqreb Bəyannaməsi imzalayıblar. Bu Bəyannamə münasibətlərimizin yüksək səviyyədə olmasının bariz nümunəsidir.

Oqtay Əsədov, həmçinin qeyd edib ki, Azərbaycanla Xorvatiya arasında iqtisadi əlaqələr də yüksək səviyyədədir. Keçən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 250 milyon dollara yaxın olub.

Milli Məclisin sədri bildirib ki, parlamentlərarası əlaqələr də yüksək səviyyədədir. Qarşılıqlı səfərlər həyata keçirilir. Biz beynəlxalq parlament təşkilatlarında çox vaxt bir mövqedən çıxış edirik.

Xanım Mariya Buriç deyib ki, Xorvatiya ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyəyə çatması üçün ölkəsi bütün tədbirləri görüb. Yüksəksəviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafına böyük töhfə verdiyini deyən Mariya Buriç bildirib ki, ölkələrimiz arasında Zaqreb Bəyannaməsinin imzalanmasından sonra siyasi, iqtisadi sahələrdə əlaqələr genişlənib. O, Azərbaycanda Xorvatiyanın səfirliyinin açılmasının əlaqələrimizin inkişafına töhfə verəcəyinə inandığını deyib.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycan-Argentina əlaqələri inkişaf edir



**Aprelin 29-da Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzo ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov son vaxtlar Azərbaycan-Argentina münasibətlərinin inkişaf etdiyini söyləyib. Bildirib ki, Azərbaycan ilə Argentina arasında siyasi əlaqələr yaxşı səviyyədədir. Bu günə kimi ölkələrimiz arasında 25 sənəd imzalanıb, 9 sənəd isə imzalanma ərəfəsindədir.

Sədr qeyd edib ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlıq da inkişaf edir. Lakin bu sahədə əlaqələr daha da genişləndirilməlidir. O, Azərbaycan-Argentina biznes-forumunu xatırladaraq bu cür tədbirlərin sayının artırılmasının zəruriliyini qeyd edib.

Görüşdə turizm sahəsində əlaqələrin inkişafının zəruriliyi də vurğulanıb.

Oqtay Əsədov deyib ki, Azərbaycan-Argentina parlamentlərarası əlaqələri yaxşı səviyyədədir. Hər iki parlamentdə dostluq qrupları fəaliyyət göstərir, qarşılıqlı səfərlər həyata keçirilir. O, Argentina Milli Konqresinin Deputatlar Palatasının sədrinin bu səfərinin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayacağına ümid etdiyini bildirib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söz açan sədr Argentinanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi üçün minnətdarlığını bildirib.

Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzo göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O deyib ki, əlaqələrimizin genişləndirilməsi üçün sahələrimiz çoxdur. Parlamentlərarası əlaqələrlə yanaşı, icra hakimiyyətləri səviyyəsində də əməkdaşlığı inkişaf etdirə bilərik.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

*Emilio Monzo:*

# Azərbaycana səfərimin məqsədi əlaqələrimizin möhkəmlənməsinə töhfə verməkdir

**Azərbaycana səfərimin məqsədi əlaqələrimizin daha da möhkəmlənməsinə töhfə verməkdir.**

AZƏRTAC xəbər verir ki, bu fikri Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzo jurnalistlərə müsahibəsində deyib. O qeyd edib ki, Azərbaycan və Argentina arasında əlaqələrin inkişafı bir neçə il əvvəl başlayıb. Müxtəlif səviyyələrdə, o cümlədən parlamentlər səviyyəsində qarşılıqlı səfərlər həyata keçirilib. Ölkələrimiz arasında bütün sahələrdə əlaqələri gücləndirmək vacibdir.

**AZƏRTAC**

# Azərbaycan ilə Xorvatiya arasında qarşılıqlı faydalı əməkdaşlıq məsələləri müzakirə olunub

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov aprelin 29-da ölkəmizdə rəsmi səfərdə olan Xorvatiya Respublikası Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriçlə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, xorvatiyalı nazir Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və çox faydalı fikir mübadiləsinin aparıldığını qeyd edib.

Nazirlər ölkələrimiz arasında bir çox sahələr üzrə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq məsələlərini müzakirə ediblər və əlaqələrin cari vəziyyətindən məmnunluqlarını bildiriblər.

Elmar Məmmədyarov 2013-cü il martın 11-də Prezident İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri zamanı Zaqrebdə imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin əhəmiyyətini qeyd edib. Eyni zamanda, ölkələrimiz arasında ticarət dövriyyəsinin həcminin strateji əməkdaşlığımızın potensialına uyğun gəlmədiyini söyləyən nazir bu xüsusda tərəflərin birgə addımları nəzərdən keçirməli olduğunu deyib. Səfər çərçivəsində təşkil olunan Azərbaycan-Xorvatiya biznes forumunun bu baxımdan mühüm rol oynadığı bildirilib.

Nazir, həmçinin Xorvatiyadan olan həmkarına Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən mühüm infrastruktur, enerji və nəqliyyat layihələri haqqında məlumat verib və Xorvatiya şirkətlərini həmin layihələrdən yararlanmağa dəvət edib.

Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin sentyabrında Xorvatiyaya rəsmi səfərini məmnunluqla xatırlayan nazir Mariya Buriç ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin əhəmiyyətini vurğulayıb. İkitərəfli iqtisadi-ticarət əlaqələrinin inkişaf perspektivlərinin dəyərləndirilməsi baxımından Bakıda keçirilmiş biznes forumun önəmini vurğulayan xanım nazir növbəti belə tədbirin yaxın gələcəkdə Zaqrebdə təşkil ediləcəyini bildirib.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesi barədə danışan nazir Elmar Məmmədyarov münaqişənin beynəlxalq hüququn prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinin zəruriliyini bildirib. Bu xüsusda, Xorvatiyanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə davamlı dəstək mövqeyi məmnuniyyətlə qeyd edilib.

Tərəflər, həmçinin Azərbaycan-Avropa İttifaqı əlaqələri, Şərq Tərəfdaşlığının yubiley tədbirləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparıblar.

Görüşdən sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

**AZƏRTAC**

# Bakıda Xorvatiya səfirliyinin rəsmi açılışı olub



**Aprelin 29-da Bakıda Xorvatiya səfirliyinin rəsmi açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Xorvatiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Branko Zebiç səfirliyin açılmasının hər iki ölkə üçün mühüm əhəmiyyətə malik hadisə olduğunu deyib. Qeyd edib ki, bu, ölkələrimiz arasında əlaqələrin daha da inkişafına təkan verəcək.

Tədbirdə çıxış edən Xorvatiya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriç Bakıya ilk rəsmi səfərindən məmnunluğunu bildirib. O, səfirliyin açılmasının vacib hadisə olduğunu vurğulayıb və bunun ölkələrimiz, xalqlarımız arasında əlaqələri gücləndirəcəyini bildirib. Xanım nazir səfəri zamanı Bakıda keçirdiyi görüşlərin, eləcə də təşkil olunan biznes forumun əhəmiyyətindən danışıb. Əlavə edib ki, iqtisadi əməkdaşlığın inkişafı üçün bu biznes forum vacib əhəmiyyət daşıyır. Xorvatiya Azərbaycanla əməkdaşlığa əhəmiyyət verir.

Vergilər naziri Mikayıl Cabbarov tədbirdə çıxış edərək bildirib ki, Xorvatiyanın Bakıda səfirlik açmaqla bağlı qərarı ölkələrimiz arasında dostluq və etimad mühitinə uyğundur. Nazir ikitərəfli əlaqələrin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin, imzalanan sənədlərin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, iqtisadi əməkdaşlıq üzrə birgə komissiyanın fəaliyyəti iqtisadi əlaqələrin inkişafına öz töhfəsini verir. O, ölkələrimiz arasında əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirib.

**AZƏRTAC**

# Xorvatiya iş adamları Azərbaycandakı əlverişli biznes və investisiya mühitindən yararlanmağa dəvət edilib

*Bakıda Azərbaycan-Xorvatiya biznes forumu keçirilib*





**İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə aprelin 29-da Bakıda Azərbaycan-Xorvatiya biznes forumu keçirilib. Tədbirdə rəsmi şəxslərlə yanaşı, hər iki tərəfdən iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 80-dən çox sahibkar iştirak edib.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov Azərbaycan-Xorvatiya iqtisadi-ticarət əlaqələrinin inkişaf etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, indiyədək Azərbaycanla Xorvatiya arasında müxtəlif sahələrdə 22 sənəd imzalanıb. Azərbaycanda Xorvatiya şirkətləri uğurla fəaliyyət göstərir. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 16 faiz artaraq 250 milyon dollar təşkil edib.

Azərbaycan iqtisadiyyatı, həyata keçirilən sistemli və ardıcıl iqtisadi islahatlar barədə məlumat verən R.Məmmədov beynəlxalq qurumların hesabatlarında ölkəmizin mövqeyinin davamlı olaraq yaxşılaşdığını, "Doing Business 2019" hesabatında Azərbaycanın 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini diqqətə çatdırıb.

Nazir müavini keçirilən biznes forumun işgüzar dairələr arasında müzakirələrin aparılması, əməkdaşlığın perspektiv sahələrinin müəyyənləşdirilməsi baxımından əlverişli platforma olduğunu qeyd edib. O, Xorvatiya iş adamlarını Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən yararlanmağa, azərbaycanlı həmkarları ilə fəal əməkdaşlığa dəvət edib.

Xorvatiya Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriç Azərbaycana səfərindən məmnunluğunu bildirib, biznes forumda iş adamlarının fəal iştirakının qarşılıqlı əlaqələrin inkişafına marağın göstəricisi olduğunu, eyni zamanda, tədbirin əməkdaşlığın genişləndirilməsinə, yeni əlaqələrin qurulmasına töhfə verəcəyini qeyd edib. M.Buriç regionun önəmli ölkəsi olan Azərbaycanda Xorvatiya səfirliyinin açılmasının siyasi-iqtisadi əməkdaşlığın genişlənməsində əhəmiyyətini vurğulayıb.

Tədbirdə Azərbaycan ilə Xorvatiyanın biznes mühiti və investisiya imkanlarına dair təqdimatlar keçirilib.

**AZƏRTAC**

# RİH başçısının vətəndaşlarla səyyar görüşü



**Beyləqan rayonunda əhalinin problemlərinin yerində həlli məqsədilə rayon icra hakimiyyəti başçısının qəsəbə və kəndlərdə mütəmadi olaraq səyyar qəbul-görüşləri keçirilir. RİH başçısı Asif Ağayevin növbəti səyyar qəbul 23 aprel 2019-cu il tarixdə rayonun Orta Əlinəzərli kəndində keçirilmişdir.**

Görüşdə rayon icra hakimiyyətinin, rayonun hüquq-mühafizə orqanlarının, xidmət sahələrinin rəhbərləri, kütləvi informasiya vasitələrinin nümayəndələri, kənd sakinləri və ərazidə müvəqqəti məskunlaşmış məcburi köçkünlər iştirak etmişdir. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Asif Ağayev sakinləri salamladı və onları narahat edən məsələlər barəsində çıxış etmələrini xahiş etdi.

Görüşdə söz istəyən Orta Əlinəzərli kənd sakini, təqaüdçü Cəfərov Mayor Fərrux oğlu kəndin içməli suya olan tələbatının yaxşılaşdırılmasını xahiş etdi. Vətəndaşın tələbi nəzərə alınaraq aidiyyəti üzrə rayon Sukanal İdarəsinin müdirinə müvafiq tapşırıqlar verildi.

Kənd sakini Məmmədov Əjdər Qurban oğlu Orta Əlinəzərli kənd tam orta məktəbin əsaslı təmir olunmasını xahiş etdi. Vətəndaşa bildirildi ki, qeyd olunan məktəbin əsaslı təmir olunması məqsədi ilə Təhsil Nazirliyi qarşısında məsələ qaldırılmışdır.

Orta Əlinəzərli kənd sakini Umudov Rizvan Cavanşir oğlu kənd ərazisində olan dren kanallarının lildən təmizlənməsini xahiş etdi. Vətəndaşa izah olundu ki, hazırda rayon Meliorasiya idarəsinin texnikaları kənd ərazisində drenajların təmizlənməsi işinə başlamışdır. İşlərin sürətləndirilməsi və keyfiyyətinin artırılması məqsədi ilə aidiyyəti üzrə müvafiq tapşırıqlar verildi.

Kənd sakinləri Əliyev Alı Maarif oğlu, Əliyev Zamin Məhərrəm oğlu, Abdullayev Elman Camal oğlu işlə təmin olunmalarına, Nəsirov Qəməddin İbrahim oğlu isə Orta Əlinəzərli kənd elektrik stansiyasında işlə təmin olunmasına köməklik göstərilməsini xahiş etdi. Vətəndaşlara izah olundu ki, müvafiq sənədləri toplayaraq rayon məşğulluq mərkəzinə müraciət etdikdən sonra "DOST iş mərkəzi" MMC-də işlə təmin oluna bilərlər. Qeyd olunan məsələnin həlli istiqamətində rayon məşğulluq mərkəzinin müdirinə müvafiq tapşırıqlar verildi.

Rayon icra hakimiyyətinin başçısı Asif Ağayev çıxışı zamanı bildirdi ki, bu görüşün məqsədi təsdiq edilmiş qrafikə uyğun cənab Prezidentin tapşırığına əsasən əhali ilə yerlərdə görüşüb onların problemləri ilə maraqlanmaqdır. Rayon rəhbəri rayonun sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılmasından danışaraq, görülən işlərin bundan sonra da davam etdiriləcəyini bildirmişdir.

Orta Əlinəzərli kənd sakinləri əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə, göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə öz minnətdarlıqlarını bildirdilər.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

# Zərifə xanım Əliyeva - səmimi, qayğıkeş və fədakar Azərbaycan həkimi





**Aprelin 29-da Səhiyyə Nazirliyi, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin təşəbbüsü ilə akademik Zərifə Əliyevanın anadan olmasının 96 illiyinə həsr olunan "Oftalmologiyanın aktual məsələləri" mövzusunda elmi konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin və akademik Zərifə Əliyevanın məzarlarını ziyarət ediblər. Ümummilli liderin və görkəmli oftalmoloq-alimin məzarlarına tər güllər düzülüb, əklillər qoyulub və əziz xatirələri dərin ehtiramla yad edilib.

Tədbirdə çıxış edən mərkəzin direktoru professor Elmar Qasımov Azərbaycanın tanınmış oftalmoloq-alimi, akademik Zərifə Əliyevanın oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olduğunu qeyd edib: "Zərifə xanım Əliyeva vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Görkəmli alimin 200-ə qədər elmi işi, 14 monoqrafiyası və 12 səmərələşdirici təklifi var. O, yüksəkixtisaslı səhiyyə





kadrlarının hazırlanmasına böyük əmək sərf edib. Zərifə xanım Əliyeva tələbələrinə zəngin həyat təcrübəsini öyrədib, onlara diqqət və qayğı ilə yanaşıb. O, heç zaman gərgin işdən usanmayıb, ürəkdən və ilhamla çalışıb. Zərifə Əliyevanın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırıb.

Zərifə xanım Əliyeva vaxtilə Bakıda oftalmologiya mərkəzinin tikilməsi üçün təşəbbüslər irəli sürüb. Onun bu arzusu həyata keçirilib. Belə ki, artıq 10 ildir ki, Bakıda dünyanın ən böyük və müasir oftalmologiya mərkəzlərindən biri - akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi fəaliyyət göstərir. Beynəlxalq standartlara cavab verən müasir diaqnostik avadanlıqlarla təchiz olunmuş mərkəzin digər filialının ilin sonunadək Şəkidə açılması nəzərdə tutulub. Onu da qeyd edim ki, mayın 24-də Milli Oftalmologiya Mərkəzinin 10 illiyinə həsr olunmuş konfrans keçiriləcək".

E.Qasımov fədakar Azərbaycan həkiminin sadəliyi, vətənpərvərliyinin hər kəs üçün nümunə olduğunu və onun xeyirxah əməlləri, oftalmologiyanın inkişafına verdiyi töhfələrin heç zaman unudulmayacağını da diqqətə çatdırıb.

Sonra mərkəzin elmi katibi, tibb elmləri doktoru Nazilə Rüstəmova tanınmış oftalmoloq-alimin ömür yolundan, pedaqoji və həkimlik fəaliyyətindən danışıb, oftalmologiya sahəsindəki misilsiz xidmətləri barədə tədbir iştırakçılarına məlumat verib.

Konfrans "Multifokal intraokulyar linzaların implantasiyasında "Mix And Match" texnikası" , "Gəncə-Qazax iqtisadi rayonunda uşaq və yeniyetmə əhalinin görmə itiliyinin səciyyələri", "Şəkərli diabetin diaqnostikası və tibbi yardım üzrə alqoritmi", "Keratakonus xəstələrinin ilkin mərhələsində Prk üsulunun və Krosslinkinq texnologiyasının tətbiqi", "Gözdaxili cisim olan xəstələrdə müalicə taktikası" və s. mövzularda məruzələr və müzakirələrlə davam etdirilib.

**AZƏRTAC**

# Energetika naziri Şirvanda vətəndaşları qəbul edib

**Energetika naziri Pərviz Şahbazov aprelin 29-da Şirvan şəhərində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Şirvan filialının inzibati binasında vətəndaşları qəbul edib.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Şirvan, Hacıqabul, Salyan və Neftçala rayon sakinləri iştirak edib. Vətəndaşların müraciətləri elektrik enerjisinə görə yaranan borcun silinməsi, elektrik sayğacının quraşdırılması, qaz sayğacının sındırılması ilə əlaqədar yazılmış cərimənin silinməsi, təbii qazın illik istehlak limitinin artırılması, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, işlə təminat və digər məsələlərlə bağlı olub.

Energetika naziri hər bir vətəndaşın müraciətini dinləyib, qaldırılan məsələlərin araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün nazirliyin struktur bölmələrinə müvafiq tapşırıqlar verib.



Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Qəbula gələn digər şəhər və rayonlardan olan vətəndaşların müraciətləri də dinlənilib, operativ həlli üçün lazımi tədbirlər görülüb. Ümumilikdə qəbulda 30-dan çox vətəndaşın müraciətinə baxılıb. Qəbula gələn vətəndaşlar bölgələrdə vətəndaşların qəbulunun təşkilinə, göstərilən hərtərəfli diqqət və qayğıya, yaradılan şəraitə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Şirvanda təşkil olunmuş qəbul barədə vətəndaşların ətraflı məlumatlandırılması üçün KİV-lərdə, Energetika Nazirliyinin rəsmi internet saytında (http://www.minenergy.gov.az) və "Facebook" səhifəsində elanlar verilib, nazirliyin saytında vətəndaşların qəbulu üçün elektron müraciətlərin onlayn qeydiyyata alınması məqsədilə imkanlar yaradılıb.

**AZƏRTAC**

# Akademik Arif Paşayev Beynəlxalq Mühəndislik Akademiyasının "ALMAZ" nişanı ilə təltif olunub

**Aprelin 26-da Moskva şəhərində Beynəlxalq Mühəndislik Akademiyasının (BMA) 2018-ci ildəki fəaliyyətinə dair ümumi yığıncaq keçirilib.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Mühəndislik Akademiyasının prezidenti



ДИПЛОМ

ПРЕЗИДИУМ СОВЕТА ПРЕЗИДЕНТОВ
МЕЖДУНАРОДНОЙ ИНЖЕНЕРНОЙ АКАДЕМИИ
Постановлением № 60 от 29 ноября 2018 года
наградил
Пашаева
Арифа Мир Джалал оглы

Алмазным знаком
Международной инженерной академии

Президент Академии Б.В.Гусев

akademik Boris Qusev 15 ölkədən BMA-nın üzvü olan 266 alimin iştirak etdiyi yığıncaqda hesabat məruzəsi ilə çıxış edib.

Azərbaycan Mühəndislik Akademiyasının (AMA) vitse-prezidenti, akademik Əhəd Canəhmədov ümumi Yığıncağın iştirakçılarının yekdil qərarı ilə Mandat Komissiyasının sədri seçilib. Akademik Əhəd Canəhmədov AMA-nın 2018-ci ildəki fəaliyyəti barədə ətraflı məlumat verib.

Yığıncaq ərəfəsində Moskvada nəşr olunan "Инженерная Газета"nın aprel nömrəsində Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, Beynəlxalq Mühəndislik Akademiyasının vitse-prezidenti akademik Arif Paşayevin "Vəzifələri kosmik yüksəkliyə qaldırarkən" ("Поднимая задачи до космических высот") sərlövhəli geniş məqaləsi dərc olunub.

Qəzetin həmin nömrəsi yığıncaq iştirakçılarına paylanılıb. Müəllif məqalədə ölkəmizin iqtisadiyyatının şaxələndirilməsi çərçivəsində qeyri-neft sektorunun inkişaf etdirilməsi, həmçinin sənayenin və aqrar sahələrin dirçəldilməsi istiqamətində və digər transregional layihələrin icrası məsələlərindən ətraflı bəhs edib. Akademik Arif Paşayevin məqaləsi tədbir iştirakçılarının böyük marağına səbəb olub.

Ümumi Yığıncaqda BMA-nın Prezidentlər Şurasının İdarə Heyətinin qərarı ilə akademik Arif Paşayevin Beynəlxalq Mühəndislik Akademiyasının "ALMAZ" nişanı ilə təltif olunduğu elan edilib. Bildirilib ki, görkəmli alim bu mükafata elm və təhsildəki uğurlarına, mühəndislik elminin, Azərbaycan Mühəndislik Akademiyasının inkişafındakı, materialların dağılmadan nəzarət metodunun sənayedə tətbiqindəki, böyük beynəlxalq layihələrin işlənilməsi və həyata keçirilməsindəki xüsusi xidmətlərinə görə layiq görülüb.




Yığıncaqda, həmçinin Azərbaycandan BMA-ya 1 həqiqi və 2 müxbir üzv də seçilib.

**AZƏRTAC**

# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri İsmayıllıda vətəndaşları qəbul edib

**Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev aprelin 29-da İsmayıllı rayonunda vətəndaşları qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qəbulda İsmayıllı, Ağdaş, Ağsu və Kürdəmir rayonlarında yaşayan vətəndaşlar iştirak ediblər. Müraciət edənlərin əksəriyyəti həmin ərazilərdə məcburi köçkün kimi məskunlaşan şəxslər olub. Onların müraciətləri, əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluq, status, kommunal xidmətlər, vahid aylıq müavinətin təyin edilməsi və digər məsələlərlə bağlı olub.



Məcburi köçkünlərə xatırladılıb ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşların sosial problemlərinin həllinə böyük diqqət və qayğı göstərir. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər görülür, onlar üçün paytaxtda və bölgələrdə hər cür infrastrukturu olan yaşayış komplekslərinin inşası davam etdirilir.

Birinci vitse-prezident xanım Mehriban Əliyevanın tapşırığı ilə, ilk növbədə, yeni evlərə və mənzillərə hələ də ən ağır şəraitdə yaşayan məcburi köçkün ailələr köçürülür. Köçürülmə prosesinin ədalətli və şəffaf şəkildə aparılmasına ölkə rəhbərliyi tərəfindən ciddi nəzarət təmin olunur.

Qəbulda iştirak edən vətəndaşların müraciətlərinin bir qismi yerində həll edilib.

Dövlət Komitəsinin sədri müraciətlərdə qaldırılan məsələlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlərin görüləcəyini bildirib.

**AZƏRTAC**

# RAGB Moskvada "Dostluq marafonu" keçirəcək

**Rusiya Azərbaycanlı Gənclər Birliyi (RAGB) Ümumrusiya Millətlərarası Gənclər İttifaqı ilə birlikdə mayın 4-də Moskvada "Dostluq marafonu" keçirəcək.**

AZƏRTAC xəbər verir ki, RAGB hər kəsi müxtəlif millətlərə və dinlərə mənsub olan insanları birləşdirəcək, idman vasitəsilə sağlam həyat tərzini təbliğ edəcək "Dostluq marafonu"nda iştirak etməyə dəvət edir.

Marafon Heydər Əliyev Fondunun təşəbbüsü ilə artıq dördüncü dəfə keçiriləcək "Bakı marafonu - 2019" ərəfəsində təşkil olunacaq. Bu marafon mayın 5-də "Küləyə qalib gəl!" devizi altında keçiriləcək.

Moskva "Dostluq marafonu"nun məsafəsi 8 kilometrə yaxındır. İştirakçılar "Universitet" metrosunun yaxınlığında start götürəcək, şəhərin müxtəlif yerlərindən keçərək Qorki parkında finişə çatacaqlar.

Marşrutboyu RAGB könüllüləri iştirakçılara su almaqda, lazım gəldikdə isə tibbi yardım göstərilməsində kömək edəcəklər.

**AZƏRTAC**

TƏKRAR

Abşeron Rayon Mərkəzi Xəstəxanası
AÇIQ TENDER ELAN EDİR
Tender 1 (bir) lot üzrə keçirilir:
Lot-3. Avadanlıqların alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu ala bilərlər.

Ünvan: Xırdalan şəhəri, İlham İsgəndərov küçəsi-8
Lot üzrə iştirak haqqı 70 (yetmiş) AZN
Əlaqələndirici şəxs: Allahverdiyeva Şəmsiyyə
Telefon: 342-20-61

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
Dövlət Xəzinədarlığı Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T. BİK CTREAZ 22
Abşeron Rayon Mərkəzi Xəstəxanası
H/h: AZ17CTRE-00000000000002126831
VÖEN: 3100805251

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
—tenderdə iştirak etmək üçün ərizə;
—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
—iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
—iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;
—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;
—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyanın vacibliyi.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 29 may 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 10 iyun 2019-cu il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 11 iyun 2019-cu il tarixdə saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

# Rənglərin sultanı

## (Gözəllik zirvəsinin fəthi)

***Dünyada ən böyük gözəllik səltənətini yaradan dahi Səttar Bəhlulzadə Azərbaycan boyakarlıq sənəti tarixinə mənzərə janrının misilsiz ustadı müxtəlif rənglərin kəşf olunmaz çalarlarını kəşf edərək onların ahəngindən dünya rəssamlıq sənətinə misilsiz töhfələr bəxş etmişdir.***

***Bu böyük rəssamın rəng palitrasının zənginliyi, poetik çalarları və kolorit gözəlliyi ilə seçilən əsərləri (milli təsviri sənətin) dünyanın ən qiymətli inciləri sırasındadır.***

***Səttar Bəhlulzadə dünya xalqlarının qeyri-maddi irsini qoruyan YUNESKO-nun qərarı ilə 2009-cu ildə dünyanın ən görkəmli şəxsiyyətləri arasında taxt qurmuşdur.***

***Bu məqaləmizdə Azərbaycan türklərinin şərəf tacı olan dünyaca məşhur Səttar Bəhlulzadəni sənət dünyasına aparan yollara işıq salmaq niyyətindəyik.***

Cocukluk illəri...

Kim bilərdi ki, 1909-cu ilin dekabrında qədim Bakının Əmircan kəndində yoxsul bir ailədə doğulmuş bir körpə adını iki qərinədə yaşanan bir sənət ömrü hələ bundan sonra da neçə yüzilliklər boyunca dünyanın gözəllik səltənəti də əbədiyyətin sənət zirvəsində Günəş kimi saçılacaq, insanların ruhunu oxşayacaqdır. Bu dünya hələ sağlığında əfsanəyə dönmüş, Səttar Bəhlulzadə kimi bir dahini bir daha görə biləcəkmi?..

Amma Allah həzrətlərinin sonsuz lütfü və qüdrəti nələr yaratmağa qadir deyil ki? On səkkiz yüz ilin böyük fransız mütəfəkkiri və filosofu Deni Didro deyirdi: “Biz dahilər yaratmayan əsrə nifrət edəcəyik”.

İyirminci yüz ilə nifrət etməmək üçün Azərbaycan sənət dünyasına iki dahi, iki türk oğlu bəxş etdi: musiqidə Üzeyir Hacıbəylini, rəssamlıq sənətində Səttar Bəhlulzadəni...

Belə rəvayət edirlər ki, balaca Səttarın cocukluq dünyası rənglərə boyanmışdı. O, dörd-beş yaşlarında ikən gecə-gündüz rəngləri bir-birinə qarışdırar, üz-gözü, üst-başı rənglərə boyanardı. Rənglərlə oynar, rənglərlə yaşardı...

Orta məktəbi bitirən on yeddi yaşlı Səttarın rənglər dünyasına sevgisi 1927-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunun qapılarını onun üzünə açdı. 1931-ci ilə qədər texnikumda təhsil alan gənc Səttar dövrünün ən böyük rəssamı Əzim Əzimzadənin diqqətini çəkir və gələcəyin dahisini “kəşf” edir. Onun müstəsna yardımlarıyla gənc istedadlı rəssam 1933-cü ildə imtahanları müvəffəqiyyətlə verərək Moskva Rəssamlıq Universitetinin qrafika sənəti fakültəsinə qəbul olunur. O, az bir vaxtda təsviri incəsənətin bütün sirlərinə yiyələnir.

Universitetdə yeganə türk rəssamı olaraq Səttar bu yüksək təhsil məbədinin göz bəbəyinə çevrilir və zəmanəsinin böyük rus rəssamlarının sevgisini qazanır. Professorlar heyəti bu gənc istedadın gələcəkdə nələrə qadir olacağını gördüklərindən onunla fəxr edirdilər. Amma Səttar qrafika sənəti fakültəsinin üçüncü kursunda həyatında geriyə dönüşü olmayan bir qərar qəbul edər. Bu qərar onun həyat yolunu ömrünün sonuna qədər müzəffər bir istiqbala aparacaqdı...

Belə ki, Səttarın çəkdiyi etüdlərin rənglərinin zənginliyinə, zəriflik və füsunkarlığına heyran qalan məşhur rus rəssamı professor Qriqori Şeqal qarşısında gələcəyin dahisini görürmüş kimi, Səttara rəngkarlıq fakültəsinə keçməyi məsləhət görür. Gənc rəssam tərəddüd etmədən dərhal Şeqalın təklifini qəbul edir və onun rəhbərlik etdiyi emalatxanada realist sənət ənənələrini dərindən mənimsəyir. Səttar 1939-cu ildə diplom işi olaraq Azərbaycanın qılınc qəhrəmanı Babəki və hürriyyət uğruna ərəb istilasına qarşı hürrəmilərin qəhrəmanlıq dastanını kətana köçürür. Bu çoxfiqurlu kompozisiyalar keşməkeşli tariximizin bədiiləşdirilməsi gənc rəssamın cəsarətinin və böyük vətən sevgisinin təzahürü idi... Elə bu zaman İkinci Cahan müharibəsinin alovları dünyanı ucsuz-bucaqsız qan girdabına sürükləməkdə idi. Belə bir zamanda Səttar vaxtilə təhsil aldığı rəssamlıq texnikumunda pedaqoji fəaliyyətə başlayır. Amma bir gün də olsun fırçanı əlindən yerə qoymur. Bu illərdə Səttar “Qubalı Fətəli xan” və “Xəttat Mirzəli Təbrizli”nin portretlərini yaradır. Əsərdə təsvir olunan Fətəli xanın düşüncəli baxışları on səkkizinci əsrdə Nadir şahın ölümündən sonra 22 xanlığa parçalanan Azərbaycanı vahid dövlətdə bir bayraq altında birləşdirməyə çalışan bir dövlət xadimi sanki Azərbaycanın fəlakətli gələcəyinə dikilib. Fətəli xan başıbəlalı Azərbaycan xanlarının ucbatından vətəni qaranlıq uçurumlara sürükləyən xəyanətlərinimi görürdü? Amma əsərdə işıqlı gələcəyə bir ümid də var. Portretdə hürriyyət arzuları ilə yaşayan xanın vətənpərvərlik duyğularının arxa planda təsvir olunan Qubanın bahar mənzərəsi, qarlı Şahdağın uca zirvəsi qüdrətli bir Azərbaycanın istiqbalından xəbər verir.

O zaman sənət dünyası elə zənn edirdi ki, Azərbaycan rəssamlıq sənətində portret janrında yeni bir ulduz parladı... Ancaq çox keçmədən birdən-birə hər şey dəyişdi. Və kimin ağlına gələ bilərdi ki, bu ulduz parlayıb bir kəhkəşana çevriləcək. Yəni bu illərdə Səttar bir-birinin ardınca “Sübhçağı”, “Xəzərin axşamı” (1947), “Atəşfəşanlıq” (1945) kimi sənət əsərləri yaratdı. Bu əsərlərdə rənglərin zənginliyi sənət aləmini valeh etmişdi. Rəssam “Atəşfəşanlıq” tablosu İnci Dünya müharibəsinin son bulması və Bakıda zəfər bayramı şərəfinə keçirilən atəşfəşanlığın təəssüratı idi. 1945-ci ildə “Sübhçağı” əsərinin Moskva sərgisində uğur qazanması Səttar Bəhlulzadəni qətiyyətlə mənzərə janrına yönəltdi. Bu seçim sənət baxımından ən doğru seçim idi və sonralar bu yol rəssamı ən uca şöhrət zirvəsinə aparacaqdı...

* * *

Səttar Bəhlulzadə 1950-ci ildən ömrünün sonunadək yaratdığı əsərlərdə insan təsvirinə az yer vermişdir.

Bu barədə dahi rəssam öz fikrini belə izah edirdi: Çox vaxt məndən soruşurdular ki, neyçin əsərlərinizdə insan təsviri yox kimidir. Cavab verirəm: Mən həm sənətimi, həm də həyatımı Azərbaycanımın tərənnümünə həsr etdim. Azərbaycanın gözəlliyinə! Təbiətin gözəlliyinə! Təbiətdə iki cür gözəllik mövcuddur. Biri insan əli toxunmayan bakirə gözəllik... Bir də insan əliylə yaranan gözəllik. Əgər mən Quba bağlarını təsvir edirəmsə bu da elə insan qüdrətinin tərənnümü deməkdir. Əgər əsərlərimdə insan yoxdursa da, onun ölməz ruhu bütün tablolarıma aşılanmışdır.

Rəssam 1954-cü ildə Qubaya növbəti səfərindən sonra elə ölməz əsərlər yaradır ki, bunlar sanki İlahi bir qüdrətin əliylə göylərdən endirilən möcüzələr idi. “Qızıl axşam”, “Yaşıl xalı”, “Son bahar”, “Meyvə bağları”, “Son bahar rüzgarı”, “Dağlar”, “Çinarlar”, “İlk bahar”, “Almalar çiçək açanda”, “Doğma düzənlər”, “Qürub çağı”, “Bahar nəğməsi” bu möcüzələr sırasındadır.

Bu gözəllik səltənəti hansı daş ürəkləri əridib riqqətə gətirməzdi ki? Sanki Tanrının nəfəsiylə cilalanan bu xoşbəxtlik dünyası hansı qaranlıq vicdanları parlatmazdı ki? Səttarın “Qızıl axşam”ındakı ilahi rənglər hansı qaralmış ruhları nura qərq etməzdi ki? Adam bu ilahi mənzərələri seyr etdikcə düşünür: Bu gözəllik və bəxtiyarlıq səltənətini yaradan insandırmı, Tanrıdırmı? Görəsən, bəşəriyyət bu cür möcüzələri bir daha yarada biləcəkmi? Dünyaya ikinci bir Səttar Bəhlulzadə gələcəkmi ki insanlığa bu gözəllikləri bəxş edə bilsin? Bu əsərlərdə boyaların zənginliyi və harmoniyası, koloritin mükəmməliyi, bir vadi içində əzəmətli Şahdağının dümağ qarlı zirvələrinədək baş alıb gedən zümrüd çəmənliyin vəhdətdə verilməsi əsərə həm monumentallıq, həm də zərif və möhtəşəm bir görkəm verməkdədir. Əzəmətlə zərifliyin, qüdrətlə gözəlliyin bir yerdə əks etdirilməsi yalnız dahilərə məxsus bir keyfiyyətdir.

“Yaşıl xalı” əsərində möhtəşəm dağlar qoynunda uzanıb gedən meyvə bağlarının ecazkar və füsunkar gözəlliyi insan oğlunun xəyalını elə ənginlərə və yüksəklərə ucaldır ki, sanki insan ruhu bu gözəllik səltənətində əriyib gedir.

1955-ci ilin baharında Azərbaycanın güney bölgəsinə üz tutan rəssam gözəlliyindən doyulmaz, ağlı-huşu başdan alacaq qədər misilsiz “Doğma düzənlər” və “Gülüstan” tablolarını yaradır. Tablolarda zümrüd çəmənlər, firuzəyi göylər, yüzbir rəngə çalan köçəri quşların xoşbəxtlik səltənəti!..

Sanki vətənlərinə, yurd-yuvalarına dönmüş minlərcə quşların insanlığa, bəşəriyyətə səslənişidir bu: Ey insanlar! Bu yer üzündə, bir səma altında hər kəsə yer vardır. Biz, hürriyyət aşiqi quşar sizə də belə bir xoşbəxtlik səltənətində həyat arzulayırıq. Bəs sizə nə olmuş, ey insanlar? Nədir bu qovğalar, savaşlar, ölümlər? Nədir bu kinlər, nifrətlər, bu zülüm və fəlakət? Birlik və bərabərlik içində özgür yaşamaq bəxtiyarlığından gözəl bir şey varmı müsafir olduğumuz bu dünyada?

* * *

1955-ci ilin son baharında Azərbaycan Dövlət İncəsənət muzeyində Səttar Bəhlulzadənin fərdi sərgisi açılır. Sərgidə rəssamın üç il ərzində yaratdığı 180-nə qədər mənzərə əsərləri və etüdlər nümayiş etdirilir.

* * *

1957-ci il böyük sənətkarın Qarabağa səfərindən sonra, cənnətməkan Şuşanın bütün gözəllikləri kətan parçasına köçürülür. Bu əsərlərdə Şuşanın şairanə mənzərələri, möhtəşəmliyi, cazibədarlığı füsunkar boyalarla canlandırılmışdır. “Cıdır düzü”, “Çaxmaq meşəsi”, “Bahar nəğməsi”, “Dağlarda cığır”, “Şuşa ətrafında”, “Dumana bürünmüş dağlar” tablolarının 1957-ci ildə Moskvadakı sərgisi böyük rəssamın qarşısında daha geniş üfüqlər açdı. Quba və Şuşa mənzərələri rəssamlıq dünyasını heyrətə gətirdi. Bu əsərlər Səttar Bəhlulzadəni əlçatmaz, ünyetməz ucalığa yüksəltdi. Bu, Səttar sənətinin zəfəri, heç bir sənətkarın ucala bilməyəcəyi bir zirvə idi. Bu şöhrət rüzgarları Sovetlər Birliyi adlanan bir imperiyanın dəmir divarlarını aşaraq dünyaya yayıldı...

Bir zamanlar dahi rəssamın güc və ilham mənbəyi əziz Vətəni cənnətməkan Şuşa və Qarabağın füsunkar gözəlliyi bəşəriyyətin üzqarası olan ermənilər tərəfindən yağmalandı, talan edildi. Amma insan haqlarından, azadlıqlarından və müstəqil dövlətlərin ərazi bölünməzliyindən dəm vuran Avropa və ABŞ bu cinayətlərə göz yumur...

*O, Qarabağ ki,*
*Gözlərində ildırımlar çaxan igidlərin*
*intiqam həsrətiylə...*
*Düşmənə göz dağı baxışlar həsrətiylə...*
*Hürriyyət mələyi fəryad qoparır*
*Uğruna axaraq müqəddəs qanlar həsrətiylə...*
*Qarabağ qan ağlayır*
*Düşmənə göz dağı vicdanlar həsrətiylə...*
*Üzeyirin goru çatdadı*
*Şuşa adlı bir məmləkət həsrətiylə...*



1960-cı ildən Səttarın yaradıcılığında yeni mərhələ başlar. Bu dövrdə dahi rəssamın kompozisiya həlli üçün vacib olan formata münasibəti kəskin şəkildə dəyişir. Rəssamın tablolarında kölgə yox olur. Rənglərin təzadlarına üstünlük verilir. İnsan əli ilə yaranan varlığın monumental təcəssümün əsərlərinin əsas leytmotivinə çevrilməsi təbiətin bakirə gözəlliyini təsvir etməkdən çox fərqli idi. Bu mənada sənətkarın yaradıcılığında ponoram xarakterli yeni kompozisiyaların yaranması təbii idi. Bu illərdə “Günəş və əmək” (1961), “Yaz səhəri” (1961), “Ədəbi Alovlar”(1963), “Kür çayı boyunca” (1961), “Xəzər Gözəli”(1961), “Abşeronda Axşam” (1962) əsərləri yaranır.

Altmışıncı illər Sovet ideologiyasına xidmət edən “Sosialist realizmi” prinsipi Azərbaycan mədəniyyəti üçün təhlükəliydi. Bu buxovları qırıb parçalayan sənətkarın başında qorxunc rüzgarlar əsməyə bilməzdi. Yəni 1960-cı illərdə Sovet ideologiyasına xidmət edən, hür düşüncələri zəncirləyən “Sosialist realizmi” prinsipi hökm-fərman idi. Və bu çərçivədən kənara çıxan sənətkar bir çox təhlükələrə məruz qalmaya bilməzdi. Bu prinsipə xidmət etməyən sənətkarların üzünə bütün qapılar bağlanırdı.

O zaman demək olar ki, Azərbaycanda Səttar Bəhlulzadə yeganə rəssam idi ki, Sosialist realizmi buxovlarını qırıb hür düşüncə və vicdan, şərəf süzgəcindən keçirərək ölməz əsərlər yaratdı.

Bununla da ustad rəssam heç bir güc qarşısında boyun əyməyəcəyini nümayiş etdirdi. Yəni əslində altmışıncı illər Səttar Bəhlulzadənin fırçası Azərbaycan milli təsviri sənətini yeni bədii fəlsəfəsi ilə zənginləşdirdi. Bununla da milli təsviri sənətdə inqilab yaratdı...

Səttar Bəhlulzadə Azərbaycanın hər qarışına elə bələd idi ki, hər bir bölgəyə xas olan rəngləri zənginləşdirərək çox böyük məharətlə tabloya köçürə bilirdi. Onun tablolarında Quba təbiətinə məxsus olan incəlik və zəriflik, Kəlbəcərdən Göyçaya qədər uzanan dağların əvəzedilməz gözəlliyi və möhtəşəmliyi, Naxçıvanın sərt ehtişamlı dağları ilə səhv salmaq mümkün deyildi. Rəssamın “İlan Dağ” (1969), “Bizim Dağlar” (1970), “Naxçıvanda son bahar” (1971), “Araz sahillərində” (1964), “Naxçıvan” (1965) bu qədim diyarın füsunkar və əzəmətli təbiətə malik olduğunun təzahürüdür. Naxçıvan dağlarının əzəməti Səttar Bəhlulzadədən əvvəllər də, sonralar da bir çox rəssamların fırçalarıyla tərənnüm edilmişdi. Amma heç bir rəssam yalnız Naxçıvan dağlarına məxsus olan zəngin “Rənglər selini” Səttar kimi kəşf edə bilməmişdi. Rəssamın yaratdığı hər yeni mənzərə böyük sənətkar qüdrətinin nələrə qadir olduğunu nümayiş etdirirdi.

* * *

Vətən torpağının gözəllik rəmzi kimi tərənnümü rəssamın tam bir silsilə tablolarının ana xəttini təşkil edir. Son dərəcə zərif və incə ruhlu bu əsərlər bəzən həzin, bəzən ehtişamlı nəğmələr kimi insan ruhunu ehtiraza gətirir və insan özünün başqa dünyalarda olduğunu hiss edir...

Rəssam ömrünün sonuna doğru irəlilədikcə yaratdığı əsərlərin əhval-ruhiyyəsi də dəyişir.

“Azərbaycan nağılı” (1970), “Abşeron bağlarında” (1970), “Laza kəndinin şəlalələri” (1972), “Sərv ağacları” (1972), “Gəncə çinarları” (1973), “Qırmızı mənzərə” (1972), “Laza ətrafı” (1974), “Suraxanı torpağının Qədim Alovları” (1971), “Mənim anam” (1973), “Tanrı ilə söhbət” (1974) əsərləri möcüzələr səltənətidir.

Bu ölməz əsərlər rəssamın sanki son vida nəğmələri idi. “Mənim anam” elə bir ana fəryadıdır ki, rəssam ömür boyu yaşadığı mənəvi tənhalığının zülmətində ayrılığın acılarını ruhunda gəzdirmiş, ömrünün son aylarında bu ağrılar ürək parçalayan bir naləyə çevrilmişdi.

Rəssam hər zaman əsərlərində bir çox rənglər selinin qalibiyyət simfoniyasını yaradırdısa yaradıcılığının son illərində bir rənglə zəfər qazanacağına inancı ən nadir dühalarda belə görülməyən son dərəcə böyük bir cəsarətdir. Amma Səttar bircə rənglə dahiliyini daha nümayiş etdirdi: Fikir, məna və fəlsəfi baxımdan “Mənim anam” və “Tanrı ilə söhbət” portret əsərləri Səttar Bəhlulzadə yaradıcılığında və ümumiyyətlə dünya rəssamlıq sənətində şah əsərlərdir.

Anadan ayrılığın yanğısı nə qədər güclü olmalıdır ki, bir ürək dərd və həsrət səhrasını içində gəzdirə bilsin. Tabloda ananın gözlərindən tökülən göz yaşları Səttarın qəlbində dərd və iztirab şəlaləsinə çevrilmişdi. O, nə doğma ana nəfəsindən doya bildi, nə ana şəfqətinin xoşbəxtliyindən. Ömür boyu bu acı ilə yaşadı. Və ürəyi ana həsrətindən partlamaq dərəcəsinə gələndə ana ayrılığının yanğısından yarandı bu əsər. Əslində dahi rəssam hamının qibtə etdiyi şöhrət zirvəsində içində ucsuz-bucaqsız bir kədər və həsrət dənizi gəzdirirdi. Bu həsrət dənizi anadan əbədi ayrılığın, yalnızlığın fəryadı idi. “Mənim anam” tablosu.

Bəlkə də böyük sənətkar anasının timsalında bu qanlı-qadalı dünyamızda övladları üçün nigaran qalan milyonlarla anaların dərd və ağrı ilə axıdılan göz yaşlarıydı. Bəlkə “Mənim anam” əsəri ilə rənglər dünyasının sultanı Səttar Bəhlulzadə şərəf və şöhrətin zirvəsində “ana-ana” deyə-deyə hönkür-hönkür ağlayırdı...

* * *

1972-ci ildə Səttar gec də olsa milli təsviri sənətimizin qarşısında xidmətlərinə görə dövlət və xalqı tərəfindən layiqincə mükafatlandırıldı. Səttar Bəhlulzadə göylərin, dağların, dənizlərin övladıydı. Bəlkə dağların böyüklüyünə və əzəmətinə sığınırdı yalnızlığından. Bəlkə doğma Xəzərin fırtınalar qüdrətindən güc almaq üçün Xəzərlə bağlı misilsiz tablolarını yaradırdı? O, göylərin oğlu idi. Bəlkə daha yüksəklərə ucalmaq üçün ölümsüz “Tanrı ilə söhbət” əsərini yaratdı. Bu dahi insan nə qədər uluydu. Ulu olduğu qədər də sadə, saf və comərd idi. Sanki göylərdən enən mələkdi. Bu misli-bərabəri olmayan sənətkar mənəvi qəhrəmanlıq abidəsiydi. Nə şan-şöhrətdə gözü vardı, nə vəzifə kürsülərində. Nə hakimiyyət qapılarını döyərdi, nə də hakimiyyət divlərinə boyun əyərdi. Və deyərdi:

*Nəyə lazım ayağıma sərilləcək ehtişamlar?*
*Mənə şöhrət zindanından qurtaracaq qüdrəti ver.*
*Nə tac istərəm, nə səltənət, nə mülkü Süleyman istərəm,*
*Yarəb, mənə dərgahına ucaldacaq qüdrəti ver!..*

40 il sərasər fasiləsiz işləyən bu çəlimsiz adamda enerjinin tükənməzliyi hardan idi? Nədə idi? Bu enerji sənət sevgisi, vətən eşqimi idi? Səttar Bəhlulzadə zənglərin məcnunumu idi, yoxsa sultanımı? Bəlkə, hər ikisinin qüdrətindən yaranmışdı bu çəlimsiz dahi?! O, tanrısının ona bəxş etdiyi bu sevgini, bu eşqi yer üzünün insanları ilə paylaşmaq üçün doğulmuşdu...

1973-cü ildə Səttar Bəhlulzadənin Moskvada fərdi sərgisi bunun əyani sübutu idi. Sərgidə əsərlərə heyranlıqla tamaşa edən bir ingilis xanımı ərindən soruşur:

—Görəsən bu rəssamın neçə yaşı var?

—Yəqin çox cavandır, - deyə ingilis xanımına cavab verir. - Çünki rəssamın bütün əsərləri təbiət mənzərələrini təsvir edir. Bu ağlasığmaz şahanə gözəllikdə əsərləri yaratmaq üçün qeyri-adi bir istedadla bərabər çox gəzmək, çox düşünmək, həm də böyük ağıl sahibi olmaq lazımdır. Dağa-daşa dırmanmaq da yaşlı adamın işi deyil.

Halbuki, o zaman Səttarın 64 yaşı vardı və bir neçə aydan sonra fırtınaları fəryad qoparan bir son bahar axşamı ölümsüz dünyasına qovuşacaqdı. Moskva sərgisi ilə bağlı bir maraqlı əhvalatı böyük rəssam belə nəql edirdi:

“Sərgi salonunda dolaşırkən görkəmindən alicənablıq duyulan bir adam, — tamaşaçı



məndən hardan gəldiyimi xəbər aldı. Azərbaycandanam dedim. İngilis tamaşaçısı dərhal sözünə davam etdi:

—Görün Azərbaycan xalqı nə qədər müdrikdir ki, Səttar kimi dühanı 40 il dünyadan gizli saxlaya bilmişdir...

Əslində ironiya ilə deyilmiş bu fikir o deməkdir ki, Azərbaycan rəhbərləri nə qədər cəsarətsiz və bədbəxtdirlər ki, şöhrəti dünyaya sığmayacaq bir dahini bəşəriyyətə tanıtdırmayasan... Azərbaycan nədən bu gündədir? Milli hiss və təəssübdən uzaq olan başçıların ucbatındanmı? Yoxsa millət dahilərinə qiymət vermədiklərinə görəmi? Məgər, dərk etmək çətindir ki, dahilərsiz bir millət heçdir və onu gələcəkdə fəlakət gözləyir... və onu da qeyd eləyək ki, Səttar Bəhlulzadəyə layiq olduğu qiyməti və dəyəri də ulu öndər hakimiyyəti dövründə verdi.

* * *

“Tanrı ilə söhbət” əsəri böyük rəssamın sevgili tanrısından ürək parçalayan ayrılığın fəryadı, vida nəğməsi idi.

Sənətkar artıq ölümün addım-addım ona yaxınlaşdığını hiss edir və içindəki böyük tənhalıq onu qəhr ederək dözülməz bir iztiraba çevrilmişdi. Tablo bu böyük iztirabın fəryadıdır. Tabloda Allahın yalnız özünəməxsus olan sirri-sehri və böyük sənətkarın ona övlad vermədiyindən doğan giley-güzarı təsvir olunur. Əsərdə yuxarıdan, bilinməz və görünməz yüksəklərdən axan şəlalə rəssamın göz yaşlarıdır və bu giley-güzarla Allahın bu sevimli bəndəsi belə fəryad qoparırdı:

—Ey mülkün gerçək sahibi olan, qüdrəti qüdrətlər, hakimiyyəti hakimiyyətlər üzərində və sonsuz zəhməti zəhmətlər üzərində olan böyük Allahım! Mənə möcüzələr yaratmaq qüdrətini verdin. Çox şükürlər olsun!

Amma nədən milyon-milyon insanlara verdiyin sevmək və sevilmək bəxtiyarlığın mənə qismət olmadı? Nə idi mənim günahım, ey böyük Yaradan? Nədən adi bir insan ömrünün xoşbəxt sevincini mənə yaşatmadın? Nədən ya Rəbbim? Nədən mənim atalıq-babalıq haqqıma qıydın? Ey bəşəriyyətin görə bilmədiyini və dərk etmədiyini bilən və dərk edən Qüdrət! Körpələr mənim yer üzündəki körpələrimdir — deyən sən, ey böyük Yaradan, nədən o süd qoxulu yavrulardan bircəsini mənə bəxş etməyib, bağrıma basmaq bəxtiyarlığından məni məhrum etdin?

*Bu necə taledi, yazıdı, Yarəb?*
*Bir qəlbə nə qədər dağ çəkilərmiş?*
*Həsrət gözlərimdən, həsrət qəlbimə*
*Araz tökülərmiş, Kür tökülərmiş...*
*Məni yüksəklərçin yaratmışdınsa*
*Yarəb ruh verəydin, qanad verəydin...*
*Zülmət verirdinsə, dərd verirdinsə,*
*Bir günəş doğacaq zülmət verəydin...*

Səttarın “Tanrı ilə söhbət” əsərində başdan-başa Nur, göz qamaşdıran parlaq bir işıq səltənəti təsvir olunur. Və bu parlaq nur səltənətində gözlə zor görünə biləcək ağılagəlməz dərəcədə əzəmətli bir kölgə... yaradan böylə təsvir olunmuş... və sanki sonsuz göylərdən, çox-çox yüksəklərdən kainatı əzəmətli bir nida sardı...

Nida: “Ey mənim sevgili bəndəm! Mən sənə bir fırçayla bəşəriyyəti heyrətdə qoyan, gözəllik səltənəti yaradan böyük bir istedad, böyük iradə və zəngin bir idrak və mənəvi qüdrət verdim. Mən səni elə yüksəklərə qaldırdım ki, bunda böylə bir fırçayla heç bir bəşər övladı o ucalara qanad gərə bilməyəcək.

Mən səni tənhalığın zülmətindən çıxarmadım deyə, giley-güzar edirsən. Yox, mənim sevgili bəndəm! Sənin yaratdıqların o qədər cazib və ehtişamlı idi ki, sən özün-özünü ilahi rənglər səltənətinin “əsarətinə” məhkum etdin. İçindəki o böyük, müqəddəs tənhalıq olmasaydı sənin yaratdığın gözəllik səltənəti də var olmazdı. Sən dünyaya göstərdin ki, insan oğlu bir fırçayla da Allah dərgahına ucalacaq qədər yüksələ bilər. Allah öz sevgili bəndəsinə bundan böyük qüdrət və mükafat verə bilərmi?..

Budur “Tanrı ilə söhbət” əsərinin fəlsəfəsi!

Səttar Bəhlulzadə Azərbaycan Türklərinin dünya mədəniyyəti üçün ən nadir dühalardan idi. O deyirdi: Mən həyata iki dəfə doğuldum.

Birincisi: Hər kəsin doğulduğu kimi...

İkinci: Əbədiyyətə gedən yolun doğuluşu...

Gözəllik zirvəsinin fəthinə gedən yol!.. Fəth etdi də...

XX əsrin böyük türk şairi Nəcib Fazil Çənlibel üçün aşağıdakı şeiri sanki Səttar Bəhlulzadənin şərəf və ehtişamına inşa etmişdir.

*Mənə ilhamını bəxş et ki, ilahi, bir gün*
*Sənin olsun, sənə təqdimə dəyər incilərim.*
*Mən sultanlara şair, nə şairlərə şahı...*
*Tanrılar Tanrısının şairi olmaq dilərim...*

**Oqtay ALTUNBAY.**









# Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Vüqar Əhmədov**<br>“Azərişıq” ASC-nin sədrinin vəzifəsini icra edən | 02 | Mingəçevir, Ağdaş |
| **Ramil Yusifov**<br>“Azərişıq” ASC-nin sədrinin müavini | 02 | Yevlax, Ucar |
| **Ramin Quluzadə**<br>Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri | 03 | Şamaxı, Qobustan |
| **Əli Abdullayev**<br>Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini | 03 | Ağsu, İsmayıllı |
| **Rüstəm Usubov**<br>Baş prokurorun birinci müavini | 11 | MIngəçevir, Yevlax, Bərdə |
| **Kəmaləddin Heydərov**<br>Fövqəladə hallar naziri | 14 | Göyçay |
| **Rəfail Mirzəyev**<br>Fövqəladə hallar nazirinin birinci müavini | 14 | Kürdəmir |
| **Etibar Mirzəyev**<br>Fövqəladə hallar nazirinin müavini | 14 | Ucar |
| **Fikrət Məmmədov**<br>Ədliyyə naziri | 16 | Lənkəran |
| **Vilayət Zahirov**<br>Ədliyyə nazirinin müavini | 16 | Astara |
| **Toğrul Musayev**<br>Ədliyyə nazirinin müavini | 16 | Lerik |
| **Arzu Rəhimov**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 16 | Quba, Qusar |
| **Mayıl Şahverdiyev**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 16 | Xaçmaz, Şabran |
| **Yusif Mirzəyev**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 16 | Siyəzən, Xızı |
| **Əkbər Hacıyev**<br>ARDNŞ-nin “Azəriqaz” İB-in baş direktoru | 16 | Gəncə, Kəlbəcər |
| **Ramil İsgəndərov**<br>ARDNŞ-nin “Azəriqaz” İB-in baş direktorunun müavini | 16 | Goranboy, Xocalı |
| **Ruslan Əliyev**<br>ARDNŞ-nin “Azəriqaz” İB-in baş direktorunun müavini | 16 | Samux, Göygöl |
| **Ramiz Rzayev**<br>Ali Məhkəmənin sədri | 17 | Gəncə |
| **Hikmət Mirzəyev**<br>Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 17 | Göygöl |
| **Şahin Yusifov**<br>Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 17 | Samux |
| **Namiq Əsgərov**<br>Baş prokurorun müavini | 17 | Lənkəran, Masallı |
| **Sahil Babayev**<br>Əmək və əhalinin sosial müdafiəsi naziri | 17 | Astara |
| **Anar Kərimov**<br>Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 17 | Masallı |
| **Mətin Kərimli**<br>Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 17 | Lənkəran |
| **Azad Rəhimov**<br>Gənclər və idman naziri | 17 | Masallı, Yardımlı |
| **İntiqam Babayev**<br>Gənclər və idman nazirinin müavini | 17 | Lənkəran, Astara |
| **İsmayıl İsmayılov**<br>Gənclər və idman nazirinin müavini | 17 | Lerik |
| **Şahin Mustafayev**<br>İqtisadiyyat naziri | 17 | Tovuz, Şəmkir |
| **Niyazi Səfərov**<br>İqtisadiyyat nazirinin müavini | 17 | Ağstafa, Qazax |
| **Sahib Məmmədov**<br>İqtisadiyyat nazirinin müavini | 17 | Gədəbəy |
| **Oqtay Şirəliyev**<br>Səhiyyə naziri | 17 | İsmayıllı, Qəbələ |
| **Elsevər Ağayev**<br>Səhiyyə nazirinin müavini | 17 | Şamaxı, Qobustan |
| **Rahim Əliyev**<br>Səhiyyə nazirinin müavini | 17 | Göyçay |
| **Qorxmaz Hüseynov**<br>“Azərsu” ASC-nin sədri | 17 | Beyləqan, Xocavənd |
| **Teyyub Cabbarov**<br>“Azərsu” ASC-nin sədrinin birinci müavini | 17 | İmişli |
| **Etibar Məmmədov**<br>“Azərsu” ASC-nin sədrinin müavini | 17 | Füzuli |
| **Vilayət Eyvazov**<br>Daxili işlər nazirinin birinci müavini | 18 | Şəki, Qax, Zaqatala, Balakən, Oğuz, Qəbələ |
| **Məleykə Abbaszadə**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 20 | Lənkəran, Lerik |
| **Namiq Babayev**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 20 | Masallı, Astara |
| **Mübariz Qurbanlı**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 21 | Tovuz, Şəmkir |
| **Səyyad Salahlı**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini | 21 | Ağstafa, Qazax |
| **Gündüz İsmayılov**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 21 | Gədəbəy |
| **Əhməd Əhmədzadə**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 22 | Kürdəmir, Ucar |
| **Rafiq Aslanov**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 22 | Göyçay |
| **Zakir Quliyev**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 22 | Ağdaş |
| **Zakir Qaralov**<br>Baş prokuror | 24 | Gəncə, Samux, Göygöl |
| **İnam Kərimov**<br>Kənd təsərrüfatı naziri | 24 | Lənkəran, Astara |
| **İlham Quliyev**<br>Kənd təsərrüfatı nazirinin müavini | 24 | Masallı, Yardımlı |
| **Seyfəddin Talıbov**<br>Kənd təsərrüfatı nazirinin müavini | 24 | Cəlilabad |
| **Əbülfəs Qarayev**<br>Mədəniyyət naziri | 24 | Şamaxı, Qobustan |
| **Vaqif Əliyev**<br>Mədəniyyət nazirinin birinci müavini | 24 | İsmayıllı, Qəbələ |
| **Rafiq Bayramov**<br>Mədəniyyət nazirinin müavini | 24 | Ağsu |
| **Ceyhun Bayramov**<br>Təhsil naziri | 24 | Ağstafa, Qazax |
| **Firidun Qurbanov**<br>Təhsil nazirinin müavini | 24 | Şəmkir, Gədəbəy |
| **Mikayıl Cabbarov**<br>Vergilər naziri | 24 | Göyçay, Kürdəmir, Ağdaş, Ucar, Zərdab |
| **Sahib Ələkbərov**<br>Vergilər nazirinin müavini | 24 | Qusar, Quba, Xaçmaz, Şabran |
| **Hicran Hüseynova**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 24 | Cəlilabad, Masallı |
| **Sədaqət Qəhrəmanova**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 24 | Biləsuvar, Cəbrayıl |
| **Rövşən Rzayev**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 24 | Zaqatala, Balakən |
| **Sabir Əhmədov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 24 | Şəki, Qax |
| **Fuad Hüseynov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 24 | Oğuz, Qəbələ |
| **Saleh Məmmədov**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 24 | Tərtər, Bərdə |
| **Əvəz Qocayev**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 24 | Goranboy |
| **Ramil Usubov**<br>Daxili işlər naziri | 25 | Bərdə, Ağdam, Tərtər, Ağcabədi, Laçın, Şuşa, Goranboy, Xocalı, Naftalan, Füzuli, Beyləqan, Xocavənd |
| **Oruc Zalov**<br>Daxili işlər nazirinin müavini | 25 | Sumqayıt, Abşeron, Qobustan, Qubadlı, Zəngilan |
| **Səfər Mehdiyev**<br>Dövlət Gömrük Komitəsinin sədri | 25 | Balakən |
| **İsmayıl Hüseynov**<br>Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 25 | Zaqatala |
| **Əsgər Abdullayev**<br>Dövlət Gömrük Komitəsi sədrinin müavini | 25 | Qax |
| **Pərviz Şahbazov**<br>Energetika naziri | 27 | Astara, Lənkəran |
| **Samir Vəliyev**<br>Energetika nazirinin müavini | 27 | Masallı, Yardımlı |
| **Elnur Soltanov**<br>Energetika nazirinin müavini | 27 | Lerik |
| **Muxtar Babayev**<br>Ekologiya və təbii sərvətlər naziri | 31 | İsmayıllı, Qəbələ |
| **Firdovsi Əliyev**<br>Ekologiya və təbii sərvətlər nazirinin müavini | 31 | Oğuz |
| **Rauf Hacıyev**<br>Ekologiya və təbii sərvətlər nazirinin müavini | 31 | Şəki |
| **Kərəm Həsənov**<br>Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 31 | Şəki |
| **Rafiq Cəlilov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 31 | Qax |
